# ATABANK
# Açıq Səhmdar Cəmiyyəti

31 dekabr 2006-cı il tarixinə bitən il üzrə

**Maliyyə Hesabatları**
**və Müstəqil Auditor Rəyi**

# “ATABANK” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA HESABAT | 1 |
| MÜSTƏQİL AUDİTOR RƏYİ | 2-3 |
| 31 DEKABR 2006-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARI: | |
| Mənfəət və zərər haqqında hesabat | 4 |
| Balans | 5 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7-8 |
| Maliyyə hesabatlarına qeydlər | 9-46 |

# 31 DEKABR 2006-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA HESABAT

Müstəqil auditor hesabatının 2-ci və 3-cü səhifələrində təqdim olunmuş müstəqil auditor rəyində şərh edilən müstəqil auditorların məsuliyyətinə uyğun oxunmalı olan bu hesabat "AtaBank" Açıq Səhmdar Cəmiyyətinin ("Bank") maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik Bankın 31 dekabr 2006-cı il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə bitən il üzrə pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişikliklər hesabatını düzgün əks etdirən və Maliyyə Hesabatının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olan maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən rəhbərlik aşağıdakılara cavabdehdir:

- Müvafiq mühasibat uçotu prinsiplərinin seçilməsinə və onların ardıcıl surətdə tətbiqinə;
- Ədalətli və düzgün qərarların verilməsinə və qiymətləndirmələrin aparılmasına;
- Maliyyə hesabatlarında açıqlanmış və izah edilmiş hər hansı mühüm kənarlaşmaların MHBS-in tələblərinə uyğunluğuna və;
- Bankın təxmin edilə bilən dövr ərzində öz fəaliyyətini davam etdirməsi mümkün olmayana qədər maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanmasına.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:

- Bankda effektiv və sağlam daxili nəzarət sisteminin qurulmasına, tətbiqinə və saxlanılmasına;
- Bankın maliyyə vəziyyətini hər zaman dəqiq açıqlayan və Bankın maliyyə hesabatlarının MHBS-in tələblərinə uyğun olduğuna təminat verən mühasibat yazılışlarının hər zaman dəqiq və düzgün saxlanılmasına;
- Mühasibat yazılışlarının Azərbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu qaydalarına uyğun aparılmasına;
- Bankın aktivlərinin mühafizə edilməsi üçün mümkün tədbirlərin görülməsinə və;
- Saxtakarlıq hallarının və digər pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına.

31 dekabr 2006-cı il tarixinə bitən il üzrə maliyyə hesabatlarının buraxılması 20 avgust 2007-ci il tarixdə İdarə Heyəti tərəfindən təsdiq olunmuşdur.

İdarə Heyəti tərəfindən

| | |
|---|---|
| Sədr | Maliyyə direktoru |
| Cənab İltifat Ağayev | Xanım Arzu Nəsrullayeva |
| 20 avgust 2007-ci il | 20 avgust 2007-ci il |

Deloitte & Touche MMC
4-cü mərtəbə
Ləndmark
Nizami küç. 96
Bakı, AZ1010
Azərbaycan

Tel: + 994 (0) 12 598 2970
Faks: + 994 (0) 12 598 2975
www.deloitte.az

## MÜSTƏQİL AUDİTOR RƏYİ

"AtaBank" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarına və İdarə Heyətinə:

**Maliyyə hesabatları**

Biz "AtaBank" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Bank") 31 dekabr 2006-cı il tarixinə hazırlanmış balansdan və həmin tarixdə bitən il üzrə mənfəət və zərər, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişikliklər haqqında hesabatlardan ibarət olan maliyyə hesabatlarının, əsas mühasibat uçotu siyasətləri üzrə icmalın və digər izahlı qeydlərin auditini apardıq.

**Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti**

Bankın rəhbərliyi Maliyyə Hesabatının Beynəlxalq Standartları əsasında maliyyə hesabatlarının hazırlanmasına və ədalətli təqdimatına görə cavabdehdir. Rəhbərliyin məsul olduğu vəzifələrə aşağıdakılar daxildir: maliyyə hesabatlarının saxtalaşdırmadan və hər hansı mühüm təhriflərə yol vermədən hazırlanması və ədalətli təqdimatına uyğun daxili nəzarətin planlaşdırılması, tətbiqi və saxlanılması; müvafiq mühasibat uçotu siyasətlərinin seçilməsi və tətbiqi; və şəraitə müvafiq mühasibat qiymətləndirmələrinin aparılması.

**Auditorun məsuliyyəti**

Bizim məsuliyyətimiz apardığımız auditin nəticəsinə əsaslanaraq Bankın maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun olaraq həyata keçirdik. Həmin standartlar tələb edir ki, biz etik tələbləri yerinə yetirməklə yoxlamanın aparılmasını elə planlaşdıraq və həyata keçirək ki, maliyyə hesabatlarında əks etdirilən məlumatlarda əhəmiyyətli səhvlərin olmamasına kifayət qədər əmin olaq.

Audit zamanı maliyyə hesabatlarında əks etdirilən məbləğlər və açıqlamalar üzrə sübutların təsdiq edilməsi üçün prosedurlar aparılır. Prosedurlar auditorun qərarından, o cümlədən maliyyə hesabatlarında səhv və saxtakarlıqla bağlı mühüm risklərin qiymətləndirilməsindən asılı olaraq seçilir. Həmin risk qiymətləndirmələrini apararkən, auditorun məqsədi təşkilatın daxili nəzarət sisteminin effektivliyi haqqında rəy vermək deyil, şəraitə müvafiq audit prosedurlarının planlaşdırılması üçün təşkilat tərəfindən maliyyə hesabatlarının hazırlanması və ədalətli təqdimatının daxili nəzarət sisteminə uyğunluğunu nəzərdən keçirməkdir.
.

Deloitte.

Audit yoxlamasına həmçinin Bankın rəhbərliyi tərəfindən tətbiq edilmiş mühasibat uçotu siyasətlərinin və aparılmış mühasibat hesablamalarının müvafiqliyinin, eləcə də ümumi maliyyə hesabatlarının təqdimatının qiymətləndirilməsi dapxildir.

Hesab edirik ki, apardığımız audit nəticəsində rəy vermək üçün kifayət qədər əsas toplamışıq.

Bank bizi 31 dekabr 2006 və 2005-ci il tarixinə Ata Lizinq Açıq Səhmdar Cəmiyyətinə ("Əlaqəli müəssisə") qoyduğu 180,000 manat məbləğində investisiyanı və həmçinin 31 dekabr 2006 və 2005-ci il tarixinə müvafiq olaraq 12,705 AZN and 74,038 AZN məbləğində banka aid yığılmış zərərləri əks etdirən maliyyə hesabatları və müvafiq təsdiqedici sənədlərlə ilə təmin edə bilmədi. Biz həmçinin Əlaqəli müəssisəyə qoyulan investisiyanın balans dəyərini və digər audit prosedurları vasitəsilə onun mənfəətindəki payını təsdiqini əldə edə bilmədik.

**Rəy**

Fikrimizcə, bu cür düzəlişlərin təsiri, əgər varsa, istisna olmaqla və Əlaqəli müəssisəyə zəruri hesab edilə bilən investisiyalar və onun mənfəətindəki payla bağlı kifayət qədər məlumat əldə edə biləcəyimiz təqdirdə bu maliyyə hesabatları 31 dekabr 2006-cı il tarixinə "AtaBank" Açıq Səhmdar Cəmiyyətinin maliyyə vəziyyətini, həmin tarixdə bitən il üzrə fəaliyyət nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli hallarda düzgün və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun əks etdirir.

Deloitte & Touche.

20 avgust 2007-ci il

## 31 DEKABR 2006-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT
*(Yeni Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 2006 | 2005 |
|---|---|---|---|
| Faiz gəlirləri | 4, 27 | 5,388,678 | 3,513,232 |
| Faiz xərcləri | 4, 27 | (2,666,031) | (1,334,594) |
| FAİZ HESABLANAN AKTİVLƏR ÜZRƏ EHTİMAL OLUNAN ZƏRƏRLƏR ÜÇÜN EHTİYATIN YARADILMASINDAN ƏVVƏL XALİS FAİZ GƏLİRLƏRİ | | 2,722,647 | 2,178,638 |
| Faiz hesablanan aktivlər üzrə ehtimal olunan zərərlər üçün ehtiyat | 5,27 | (67,497) | (514,290) |
| XALİS FAİZ (XƏRCİ)/GƏLİRİ | | 2,655,150 | 1,664,348 |
| Xarici valyuta əməliyyatları üzrə xalis gəlir | 6 | 155,531 | 121,991 |
| Haqq və komissiya gəlirləri | 7, 27 | 1,683,207 | 1,409,304 |
| Haqq və komissiya xərcləri | 7 | (350,954) | (302,475) |
| Sair gəlirlər | 9, 27 | 23,298 | 764 |
| XALİS QEYRİ-FAİZ GƏLİRLƏRİ | | 1,511,082 | 1,229,584 |
| ƏMƏLİYYAT GƏLİRLƏRİ | | 4,166,232 | 2,893,932 |
| ƏMƏLİYYAT XƏRCLƏRİ | 8, 27 | (3,494,563) | (2,373,681) |
| ƏMƏLİYYAT MƏNFƏƏTİ | | 671,669 | 520,251 |
| Zəmanətlər və digər öhdəliklər üçün ehtiyat üçün ehtiyat / (ehtiyatların bərpası) | 5 | (62,396) | 23,178 |
| Əlaqəli müəssisənin gəlirindəki pay | 16,27 | 56,933 | 21,748 |
| MƏNFƏƏT VERGİSİNDƏN ƏVVƏL MƏNFƏƏT | | 666,206 | 565,177 |
| Mənfəət vergisi xərcləri | 10 | (139,981) | (183,621) |
| XALİS MƏNFƏƏT | | 526,225 | 381,556 |

İdarə Heyəti tərəfindən

Sədr
Cənab İltifat Ağayev

20 avgust 2007-ci il

Maliyyə direktoru
Xanım Arzu Nəsrullayeva

20 avgust 2007-ci il

9-46-cı səhifələrdə verilmiş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil Auditor Rəyi 2 və 3-cü səhifələrdə təqdim olunmuşdur.

# ATABANK AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2006-Cİ İL TARİXİNƏ
## BALANS
*(Yeni Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 2006 | 2005 |
|---|---|---|---|
| **AKTİVLƏR:** | | | |
| Nağd pul və Azərbaycan Respublikası Milli Bankındakı qalıq vəsaitlər | 11 | 8,392,259 | 2,653,482 |
| Banklara verilmiş kreditlər və avanslar | 12 | 7,529,420 | 1,723,580 |
| Müştərilərə verilmiş kreditlər | 13, 27 | 35,112,601 | 21,752,225 |
| Satıla bilən investisiyalar | 14 | 460,000 | 60,000 |
| Ödəniş tarixinədək saxlanılan investisiyalar | 15 | 3,005,882 | 600,810 |
| Əlaqəli müəssisələrə investisiyalar | 16, 27 | 636,158 | 594,663 |
| Əmlak və avadanlıq | 17 | 3,715,887 | 3,610,774 |
| Qeyri-maddi aktivlər | 18 | 538,919 | 99,002 |
| Cari mənfəət vergisi aktivləri | 10 | - | 17,212 |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 10 | 57,782 | - |
| Sair aktivlər | 19, 27 | 3,246,696 | 621,198 |
| CƏMİ AKTİVLƏR | | 62,695,604 | 31,732,946 |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| Banklardan və digər kredit təşkilatlarından alınmış kreditlər və avanslar | 20 | 13,218,457 | 8,887,930 |
| Müştəri hesabları | 21, 27 | 39,762,635 | 14,984,516 |
| Cari mənfəət vergisi öhdəlikləri | 10 | 10,872 | - |
| Təxirə salınmış mənfəət vergisi öhdəliklər | 10 | - | 12,598 |
| Maliyyə lizinqi əsasında öhdəliklər | 22,27 | 29,765 | 53,699 |
| Zəmanətlər üzrə ehtimal olunan zərərlər üçün ehtiyat | | 62,396 | - |
| Digər öhdəliklər | 23 | 218,729 | 167,678 |
| Cəmi öhdəliklər | | 53,302,854 | 24,106,421 |
| KAPİTAL: | | | |
| Səhmdar kapitalı | 24 | 8,500,000 | 7,000,000 |
| Bölüşdürülməmiş mənfəət | | 892,750 | 626,525 |
| Cəmi kapital | | 9,392,750 | 7,626,525 |
| CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL | | 62,695,604 | 31,732,946 |

**İdarə Heyəti tərəfindən**

| | |
|---|---|
| **Sədr** | **Maliyyə direktoru** |
| **Cənab İltifat Ağayev** | **Xanım Arzu Nəsrullayeva** |
| 20 avgust 2007-ci il | 20 avgust 2007-ci il |

9-46-cı səhifələrdə verilmiş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil Auditor Rəyi 2 və 3-cü səhifələrdə təqdim olunmuşdur.

# ATABANK AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2006-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

*(Yeni Azərbaycan Manatı ilə)*

| | Səhmdar kapitalı | Əmlak və avadanlıqların yenidən qiymətləndirmə ehtiyatı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2004-cü il** | 5,000,000 | 117,339 | 732,143 | 5,849,482 |
| Səhmdar kapitalında artım | 2,000,000 | - | - | 2,000,000 |
| Əmlak və avadanlıqların yenidən qiymətləndirmə ehtiyatından bölüşdürülməmiş mənfəətə köçürmələr | - | (117,339) | 117,339 | - |
| Elan olunmuş dividendlər | - | - | (604,513) | (604,513) |
| Xalis mənfəət | - | - | 381,556 | 381,556 |
| **31 dekabr 2005-ci il** | 7,000,000 | - | 626,525 | 7,626,525 |
| Səhmdar kapitalında artım | 1,500,000 | - | - | 1,500,000 |
| Elan olunmuş dividendlər | - | - | (260,000) | (260,000) |
| Xalis mənfəət | - | - | 526,225 | 526,225 |
| **31 dekabr 2006-cı il** | 8,500,000 | - | 892,750 | 9,392,750 |

İdarə Heyəti tərəfindən

Sədr
Cənab İltifat Ağayev

20 avgust 2007-ci il

Maliyyə direktoru
Xanım Arzu Nəsrullayeva

20 avgust 2007-ci il

9-46-cı səhifələrdə verilmiş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil Auditor Rəyi 2 və 3-cü səhifələrdə təqdim olunmuşdur.

## 31 DEKABR 2006-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
*(Yeni Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 2006 | 2005 |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN YARANAN NAĞD PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət | | 666,206 | 565,177 |
| Düzəlişlər: | | | |
| Faiz hesablanan aktivlər üzrə ehtimal olunan zərərlər üçün ehtiyat | | 67,497 | 514,290 |
| Zəmanətlər və digər öhdəliklər üçün ehtiyat / (ehtiyatların bərpası) | | 62,396 | (23,178) |
| Köhnəlmə və amortizasiya xərcləri | | 536,670 | 399,755 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin silinməsi üzrə zərər | | 117 | 1,996 |
| Xarici valyuta əməliyyatları üzrə realizə olunmayan gəlir | | (24,367) | (12,468) |
| Hesablama üsulu ilə göstərilmiş faizlərdə xalis dəyişiklik | | 415,466 | (297,862) |
| Əlaqəli müəssisələrdən gəlir | | (43,039) | (21,748) |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən yaranan nağd pul vəsaitlərinin hərəkəti | | 1,680,946 | 1,125,962 |
| Əməliyyat aktiv və ya öhdəliklərində dəyişikliklər | | | |
| Əməliyyat aktivlərinin (artması)/azalması: | | | |
| Azərbaycan Respublikası Milli Bankında məcburi ehtiyat depoziti | | (3,689,227) | 121,000 |
| Banklara verilmiş kreditlər və avanslar | | (1,158,935) | 117,243 |
| Müştərilərə verilmiş kreditlər | | (13,600,838) | (4,863,861) |
| Sair aktivlər | | (160,029) | (541,973) |
| Əməliyyat öhdəliklərinin (artması)/azalması: | | | |
| Banklardan və digər kredit təşkilatlarından alınmış kreditlər və avanslar | | 4,335,064 | 1,644,833 |
| Müştəri hesabları | | 24,547,574 | (4,014,902) |
| Maliyyə lizinqi əsasında öhdəliklər | | (23,934) | - |
| Digər öhdəliklər | | 51,085 | 128,046 |
| Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətlərindən yaranan nağd pul vəsaitlərinin mədaxili / (məxarici) | | 11,981,706 | (6,283,652) |
| Ödənilmiş mənfəət vergisi | | (180,733) | (365,547) |
| Əməliyyat fəaliyyətlərindən yaranan nağd pul vəsaitlərinin xalis mədaxili / (məxarici) | | 11,800,973 | (6,649,199) |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN YARANAN NAĞD PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | | (3,862,132) | (1,019,886) |
| Əmlak və avadanlıqlarının satılmasından mənfəət | | 315,040 | 21,815 |
| Satıla bilən investisiyaların alınması | | (400,000) | - |
| Ödəniş tarixinədək saxlanılan investisiyaların alınması, xalis | | (2,405,641) | (478,783) |
| İnvestisiya fəaliyyətindən yaranan nağd pul vəsaitlərinin xalis məxarici | | (6,352,733) | (1,476,854) |

# ATABANK AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2006-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT (Davamı)

*(Yeni Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 2006 | 2005 |
|---|---|---|---|
| **MALİYYƏ FƏALİYYƏTİNDƏN YARANAN NAĞD PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Adi səhmdar kapitalın buraxılması | | 1,500,000 | 2,000,000 |
| Elan olunmuş dividendlər | | (260,000) | (604,513) |
| Buraxılmış borc qiymətli kağızlarının geri ödənilməsi | | - | (3,774,552) |
| Maliyyə fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis mədaxili / (məxarici) | | 1,240,000 | (2,379,065) |
| *Nağd pul vəsaitlərinə və pul vəsaitlərinin ekvivalentlərinə xarici valyuta məzənnəsindəki dəyişikliklərin təsiri* | | 4,156 | 12,468 |
| NAĞD PUL VƏ ONA BƏRABƏR TUTULAN VƏSAİTLƏRİN XALİS ARTMASI / (AZALMASI) | | 6,692,396 | (10,492,650) |
| İLİN ƏVVƏLİNƏ NAĞD PUL VƏ ONA BƏRABƏR TUTULAN VƏSAİTLƏR | 11 | 2,596,743 | 13,089,393 |
| İLİN SONUNA NAĞD PUL VƏ ONA BƏRABƏR TUTULAN VƏSAİTLƏR | 11 | 9,289,139 | 2,596,743 |

31 dekabr 2006-cı il tarixində bitən il ərzində Bank tərəfindən ödənilmiş və alınmış faiz məbləği müvafiq olaraq 2,427,756 AZN və 5,565,869 AZN təşkil etmişdir.

31 dekabr 2005-ci il tarixdə bitən il ərzində Bank tərəfindən ödənilmiş və alınmış faiz məbləği müvafiq olaraq 1,334,964 AZN və 3,215,739 AZN təşkil etmişdir.

**İdarə Heyəti tərəfindən**

**Sədr**
**Cənab İltifat Ağayev**
20 avgust 2007-ci il

**Maliyyə direktoru**
**Xanım Arzu Nəsrullayeva**
20 avgust 2007-ci il

9-46-cı səhifələrdə verilmiş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil Auditor Rəyi 2 və 3-cü səhifələrdə təqdim olunmuşdur.

## 1. BANK HAQQINDA ÜMUMİ MƏLUMAT

"AtaBank" Açıq Kommersiya Bankı (bundan sonra "Bank") 1993-cü ildə Azərbaycan Respublikasında yaradılmışdır. Bankın hüquqi ünvanı: Ş. Bədəlbəyli küçəsi 102, Bakı şəh., Azərbaycan. Bank Azərbaycan Respublikasının Milli Bankı ("ARMB") tərəfindən tənzimlənir və 02-10/557 nömrəli bank lisenziyası əsasında fəaliyyət göstərir. Bankın əsas biznes fəaliyyətinə kommersiya fəaliyyətləri, qiymətli kağızların, xarici valyutaların alqı-satqısı, kreditlərin və zəmanətlərin verilməsi daxildir. 31 dekabr 2006-cı il tarixinə Bankın Azərbaycanda 11 filialı və 3 xidmət məntəqəsi olmuşdur.

31 dekabr 2006 və 2005-ci il tarixlərinə Bankın işçilərinin sayı müvafiq olaraq 172 və 145 olmuşdur.

31 dekabr 2006 və 2005-ci il tarixlərinə aşağıdakı fiziki şəxslər Bankın səhmdar kapitalında paya malik olmuşlar:

| | **2006 Səhmdarların payı, %** | **2005 Səhmdarların payı, %** |
|---|---|---|
| AtaHoldinq ASC | 76 | 76 |
| Cənab Əhməd Erentok | 10 | 12 |
| Cənab Mahir Rəfiyev | 8 | 6 |
| Cənab Əşrəf Kamilov | 6 | 6 |
| Cəmi | **100** | **100** |

Banka nəzarət edən son tərəf cənab Əhməd Erentokdur.

Bu maliyyə hesabatlarının buraxılması 20 avgust 2007-ci il tarixdə İdarəetmə Heyəti tərəfindən təsdiq olunmuşdur.

## 2. TƏQDİMATIN ƏSASLARI

### Mühasibat uçotunun əsasları

Bu maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Şurası ("BMUŞ") tərəfindən buraxılmış Maliyyə Hesabatının Beynəlxalq Standartlarına ("MHBS") və Beynəlxalq Maliyyə Hesabatlarının Şərhi Şurası ("BMHŞŞ") tərəfindən buraxılmış Şərhlərə uyğun hazırlanmışdır. Bu maliyyə hesabatlarındakı məbləğlər, hər hansı digər qeydlər olmadıqda, min Yeni Azərbaycan Manatı ("manat") ilə ifadə edilmişdir. Bu maliyyə hesabatları "Əmlak, tikili və avadanlıqlar" haqqında 16 saylı Mühasibat Uçotunun Beynəlxalq Standartlarına ("MUBS") uyğun olaraq bəzi binaların müəyyən maliyyə alətləri və ölçülmənin ədalətli dəyərində yenidən qiymətləndirilən məbləğlərlə ölçülməsi istisna olmaqla, tarixi dəyər prinsipi əsasında hazırlanmışdır.

Bank mühasibat uçotunu Azərbaycan qanunvericiliyinə uyğun qaydada aparır. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu haqqında qanunvericiliyi əsasında hazırlanmış və MHBS-ə uyğunlaşdırılmışdır. Bu düzəlişlərə əsas əməliyyatların iqtisadi mahiyyətini əks etdirən yenidən təsnifləşdirmələr, o cümlədən, bəzi aktivlərin və öhdəliklərin, müvafiq maliyyə hesabatında mənfəət və zərərlərin yenidən təsnifləşdirilməsi daxildir.

Bankın rəhbərliyindən maliyyə hesabatlarının MHBS-ə uyğun hazırlanmasında aktiv və öhdəliklərin qeyd olunmuş məbləğlərinə, şərti aktiv və öhdəliklərin maliyyə hesabatlarının tərtib olunduğu tarixdə açıqlanmasına və hesabat dövründə gəlir və xərclərin qeydə alınmış məbləğlərinə təsir edən təxmini hesablamalardan və ehtimallardan istifadə etmək tələb olunur. Faktiki nəticələr həmin təxmini ehtimallardan fərqlənə bilər. Dəyişikliyə xüsusilə həssas olan təxmini hesablamalara ehtimal olunan zərərlər üçün ehtiyatlar və maliyyə alətlərinin ədalətli dəyəri aiddir.

### Əsas ehtimallar

Növbəti maliyyə dövrü ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsi riskini yaradan balans hesabatı tarixindəki qeyri müəyyənliyin qiymətləndirilməsi üçün gələcək və digər mühüm mənbələrlə bağlı əsas ehtimallara aşağıdakılar daxildir:

| | **2006** |
|---|---|
| Banklara verilmiş kreditlər və avanslar | 7,529,420 |
| Müştərilərə verilmiş kreditlər | 35,112,601 |
| Satıla bilən investisiyalar | 460,000 |
| Ödəniş tarixinədək saxlanılan investisiyalar | 3,005,882 |
| Əlaqəli müəssisələrə investisiyalar | 636,158 |

Banklara verilmiş kreditlər və avanslar, müştərilərə verilmiş kreditlər və ödəniş tarixinədək saxlanılan investisiyalar ehtimal olunan zərərlər üçün ehtiyatlar çıxılmaqla amortizasiya dəyəri/dəyər ilə ölçülür. Ehtimal olunan zərərlər üçün ehtiyatların qiymətləndirilməsi onlarla bağlı qərarlara əsaslanır. Əsas ehtimalların mümkün təsir dərəcəsini və ya balans hesabatı tarixinə bu qalıqlar üzrə qeyri-müəyyənliyin digər mənbələrini müəyyən etmək mümkün deyildir.
Vergi dəyişiklikləri 25-ci Qeyddə müzakirə olunur.

### Əməliyyat Valyutası

Bu maliyyə hesabatlarında əməliyyat valyutası Yeni Azərbaycan Manatıdır (bundan sonra "AZN").

## 3. MÜHÜM MÜHASİBAT UÇOTU QAYDALARI

**Əlaqəli müəssisələrə investisiyalar**

Əlaqəli müəssisə Bankın mühüm təsirə malik olduğu lakin investisiya obyektinin maliyyə və əməliyyat siyasəti qərarlarında iştirak etməklə nəzarətə və ya birgə nəzarətə malik olmadığı müəssisədir.

Əlaqəli müəssisələrə aktivlərin və öhdəliklərin nəticələri maliyyə hesabatlarına mühasibat uçotunun kapital metodunu istifadə etməklə daxil edilir.

Əlaqəli müəssisələrə investisiyalar Bankın əlaqəli müəssisənin xalis aktivlərindəki payına alışdan sonra düzəliş edilməklə fərdi investisiyaların dəyəri üzrə hər hansı qiymətdən düşməni çıxmaqla balans hesabatında ilkin dəyərlə daxil edilir. Əlaqəli müəssisələrin zərərləri bankın həmin müəssisədəki faizindən artıq olduqda tanınmır.

31 dekabr 2006 və 2005-ci il tarixinə Əlaqəli müəssisələrin cəmi aktivləri və öhdəlikləri həmin tarixdə bitən il üzrə mənfəət aşağıdakı kimi təqdim olunmuşdur:

| Əlaqəli müəssisənin adı | İllər | Əlaqəli müəssisənin ümumi aktivləri | Əlaqəli müəssisənin ümumi öhdəlikləri | Əlaqəli müəssisənin gəliri | Mənfəət/(zərər) |
|---|---|---|---|---|---|
| Ata Sığorta ASC | 2006 | 3,128,014 | 1,987,618 | 710,203 | 142,333 |
| Ata Sığorta ASC | 2005 | 2,067,225 | 1,030,568 | 309,246 | 55,025 |

**Maliyyə alətlərinin tanınması və ölçülməsi**

Bank maliyyə aktivlərini və öhdəliklərini yalnız o vaxt balansda uçota alır ki, o, maliyyə aləti üzrə müqavilənin tərəfi olur. Maliyyə aktivlərinin və öhdəliklərinin adi qaydada alqı-satqısı Bankın alqı-satqı əməliyyatlarını apardığı tarixdə qeyd olunur. Daha sonra satış tarixi ilə hesablaşma tarixi arasındakı ədalətli dəyərlə ölçüləcək maliyyə alətlərinin adi qaydada alışı alınmış maliyyə alətləri üçün təyin olunan qaydada hesabat olunur.

Maliyyə aktivləri və öhdəlikləri ilk olaraq ədalətli dəyər ilə, mənfəət və zərər haqqında hesabatda ədalətli dəyər ilə göstərilmədikdə isə, alışa birbaşa tətbiq olunan və ya maliyyə aktivlərinin və ya öhdəliklərinin buraxılmasına birbaşa aid olan əməliyyat xərcləri məbləğində tanınır. Bu maddələrin daha sonra yenidən qiymətləndirilməsinə dair mühasibat uçotu qaydaları aşağıda açıqlanır.

**Nağd pul və ona bərabər tutulan vəsaitlər**

Nağd pula və ona bərabər tutulan vəsaitlərə nağd pul, 90 günlük ödəmə vaxtı olan Azərbaycan Respublikası Milli Bankındakı müxbir hesablar və müddətli depozit hesablar üzrə məhdudiyyətsiz qalıqlar, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına ("İƏİT") daxil olan ölkələrdə yerləşən banklara kredit kartları ilə əməliyyatlar üçün depozitlərdən başqa verilmiş və qısa müddət ərzində nağd vəsaitə köçürülməsi mümkün olan avanslar aiddirlər. Nağd pul axınının müəyyənləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Milli Bankı tərəfindən tələb olunan məcburi ehtiyat qoyuluşları onların istifadəsi üzrə mövcud olan məhdudiyyətlər səbəbindən nağd pul vəsaitlərinə daxil edilmir (Qeyd 11).

**Banklara verilmiş kreditlər və avanslar**

Bank işinin normal gedişində digər banklara müxtəlif müddətə avanslar və ya depozitlər verir. Sabit ödəmə vaxtı ilə banklara verilmiş kreditlər və avanslar daha sonra effektiv faiz metodunu istifadə etməklə diskontlaşdırılmış dəyərlə qiymətləndirilir. Sabit ödəmə müddəti olmayan kreditlər isə ehtimal olunan ödəmə müddətinə əsaslanmaqla effektiv faiz metodu ilə hesablanır. Kredit təşkilatlarından alınacaq vəsaitlər ehtimal olunan zərər üçün hər hansı ehtiyat çıxılmaqla xalis dəyər ilə hesablanır.

**Müştərilərə verilmiş kreditlər**

Müştərilərə verilən kreditlər maliyyə hesabatlarının digər kateqoriyaları üzrə təsnifləşdirilən aktivlərdən fərqli olaraq sabit və müəyyən edilən ödənişli və fəal bazara çixarılmayan qeyri-törəmə aktivlərdir.

Bank tərəfindən sabit ödəmə müddəti ilə ayrılmış kreditlər ədalətli dəyər üstəgəl aidiyyatı əməliyyat xərcləri məbləğində tanınır. Əgər verilən məbləğin ədalətli dəyəri kreditin ədalətli dəyərinə bərabər deyilsə, məsələn kreditin bazar dəyərindən aşağı dəyərlə buraxılması, ona verilən ədalətli dəyərlə kreditin ədalətli dəyəri arasındakı fərq kreditin ilkin tanınması zamanı zərər kimi qeydə alınır və mənfəət və zərər haqqında hesabata aktivlərin ayrılması üzrə zərərlər kimi daxil edilir. Daha sonra, kreditlərin balans dəyəri effektiv faiz metodunu istifadə etməklə hesablanır. Müştərilərə verilmiş kreditlər ehtimal olunan zərərlər üçün hər hansı ehtiyat çıxılmaqla xalis dəyərlə qeydə alınır.

**Kreditlərin və avansların silinməsi**

Kreditlər və avanslar, girovun Bankın sahibliyinə keçməsi də daxil olmaqla kredit və avanslar ümidsiz borclara çevrildiyi halda, ehtimal olunan zərərlər üçün yaradılmış ehtiyatlardan silinirlər. Kreditlər və avanslar banka ödənilməli məbləğləri toplamaq üçün rəhbərlik tərəfindən bütün mümkün tədbirlər həyata keçirildikdən və Bank bütün mümkün girovları satdıqdan sonra silinir. Yerli qanunvericiliyə əsasən, kreditlər yalnız Səhmdarların Yığıncağının qərarı ilə, bəzi hallarda isə məhkəmənin müvafiq qərarı ilə silinə bilər.

**Ehtimal olunan zərərlər üçün ehtiyat**

Bank maliyyə aktivinin və ya maliyyə aktivləri qrupunun qiymətdən düşməsi haqqında obyektiv sübut olduqda maliyyə aktivləri üzrə ehtimal olunan zərərlər üçün ehtiyatlar yaradır. Ehtimal olunan zərərlər üçün ehtiyatlar amortizasiya dəyəri ilə qeydə alınan maliyyə aktivləri üçün, zəmanət və girov hesabına bərpa oluna bilən məbləğ daxil olmaqla, gələcəkdə daxil olması gözlənilən nağd pul vəsaitlərinin, maliyyə aktivlərinin ilkin effektiv faiz dərəcəsi əsasında diskontlaşdırılmaqla hesablanan ilkin dəyəri ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir. Əgər növbəti dövr ərzində ehtimal olunan zərərin məbləği azalırsa və həmin azalma qiymətdən düşmə tanındıqdan sonra baş verən hadisə ilə əlaqəli olarsa, əvvəlcə hesablanmış ehtimal olunan zərər ehtiyatı hesabına düzəliş etməklə əks istiqamətdə dəyişir. İlkin dəyər ilə uçota alınan aktivlər üzrə ehtimal olunan zərər ehtiyatı maliyyə aktivinin balans dəyəri ilə oxşar maliyyə aktivlərinin bazardakı cari rentabellik tarifləri əsasında diskontlaşdırılan gələcəkdə daxil olacaq nağd pul vəsaitlərinin ilkin dəyəri arasındakı fərq kimi hesablanır. Bu cür ehtimal olunan zərərlər bərpa edilmir.

Ehtimal olunan zərərlər üçün ehtiyatların müəyyən edilməsi riskə məruz qalan aktivlərin təhlilinə əsaslanır və rəhbərliyin fikrincə yaranmış itkiləri bərpa etməyə kifayətdir. Ehtiyatlar ayrı-ayrılıqda mühüm əhəmiyyət kəsb edən maliyyə aktivləri üçün risk aktivlərinin fərdi şəkildə qiymətləndirilməsi və ayrı-ayrılıqda mühüm əhəmiyyət kəsb etməyən maliyyə aktivləri üçün fərdi və ya birgə qiymətləndirmə nəticəsində yaradılır.

Ehtimal olunan zərərlər üçün ehtiyatdakı dəyişiklik mənfəət və zərər haqqında hesabatda göstərilir, ehtimal olunan zərərlər üçün ehtiyatın cəmi isə balans hesabatında göstərilmiş aktivləri ifadə edən rəqəmləri əldə etmək üçün çıxılır. Ehtimal olunan zərər üzrə itkinin baş verməsi haqda nə dərəcədə obyektiv sübutun olduğunu müəyyənləşdirərkən Bankın nəzərdən keçirdiyi faktorlara debitorların və ya emitentlərin likvidliyi, ödəniş etmə qabiliyyəti, biznes və maliyyə riskləri, oxşar aktivlərlə bağlı ödənişlərin gecikdirilməsi dərəcəsi, milli və yerli iqtisadi yönümlər və şəraitlər, girovun və zəmanətlərin ədalətli dəyəri daxildir. Bu və digər faktlar ayrılıqda və ya birlikdə maliyyə aktivlərində və ya maliyyə aktivləri qrupunda ehtimal olunan zərərin baş verməsi haqqında obyektiv dəlili əks etdirə bilər.

Nəzərə almaq lazımdır ki, zərərlərin qiymətləndirilməsi rəhbərliyin mühakimələrə əsaslanır. Müəyyən dövrlərdə Bankın üzləşdiyi itkilər ehtimal olunan zərərlər üçün ehtiyatlara nisbətən daha çox ola bilər ki, bu zaman ehtimal olunan zərərlər üçün ehtiyatın riskə məruz qalan aktivlər üzrə baş verən itkiləri əhatə edə bilməsinin adekvatlığı rəhbərliyin mühakiməsindən asılıdır.

**Ödəniş tarixinədək saxlanılan investisiyalar**

Ödəniş tarixinədək saxlanılan investisiyalar müəyyənləşdirilmiş və ya sabit ödənişli borc qiymətli kağızlarıdır. Bank onları ödəniş tarixinədək saxlamaq niyyətinə və imkanına malikdir. Bu qiymətli kağızlar ehtimal olunan zərərlər üçün ehtiyatlar, əgər varsa, çıxılmaqla amortizasiya dəyəri ilə qeydə alınır. Diskontlaşdırılmış dəyər effektiv faiz metodunu istifadə etməklə, ödəniş tarixinədək olan dövr üzrə faiz gəlirində tanınır.

**Satıla bilən investisiyalar**

Satıla bilən investisiyalar qeyri-müəyyən müddətə saxlanılması nəzərdə tutulan borc və səhm investisiyalarından ibarətdir. Bu qiymətli kağızlar ilk olaraq ədalətli dəyərlə qeyd olunur.

Bazar üçün nəzərdə tutulmayan borc və səhm qiymətli kağızları ehtimal olunan zərərlər çıxılmaqla, əgər varsa, ədalətli dəyəri düzgün qiymətləndirmək mümkün olmadıqda, müvafiq olaraq amortizasiya dəyəri və dəyərlə göstərilir.

Bu cür qiymətli kağızların qiymətdən düşməsinə dair obyektiv sübut olduqda, ilk olaraq kapitalda tanınmış yığılan zərər kapitaldan çıxarılır və dövr üzrə mənfəət və zərər haqqında hesabatda tanınır. Qiymətdən düşmədən sonra baş verən hadisələrlə obyektiv əlaqəsi olan borc alətləri üzrə bu cür ehtimal olunan zərərlərin bərpası dövr üzrə mənfəət və zərər hesabında tanınır. Kapital alətləri üzrə bu cür qiymətdən düşmə zərərinin bərpası mənfəət və zərər hesabında tanınmır.

**Əmlak, avadanlıq və qeyri-maddi aktivlər**

Əmlak, avadanlıq və qeyri-maddi aktivlər ilkin dəyərdən yığılmış köhnəlmə və amortizasiya və hər hansı tanınmış qiymətdən düşmə zərərini çıxmaqla tanınır. Başa çatdırılmamış və istismara buraxılmamış aktivlərin köhnəlməsi aktivin nəzərdə tutulan istifadəyə hazır olduğu tarixdən hesablanır.

Əmlak və avadanlıqların köhnəlməsi və qeyri-maddi aktivlərin amortizasiyası onların ilkin dəyərindən çıxılır və aktivlərin istismar müddətləri üzrə silinməsini nəzərdə tutur. Amortizasiya aşağıdakı illik faiz dərəcələrində bərabər hissələrə bölünməklə köhnəlmə metodunu istifadə etməklə hesablanır:

| | |
|---|---|
| Binalar | 2% |
| Mebel və avadanlıq | 14% |
| Kompüterlər | 25% |
| Nəqliyyat vasitələri | 25% |
| Digər əmlak və avadanlıq | 10%-20% |
| İcarədəki əmlakın əsaslı təmiri | 20% |
| Qeyri-maddi aktivlər | 10%-20% |

Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin balans dəyərləri hər balans hesabatı tarixinə onların bərpa dəyərlərindən artıq hesablanması, balans dəyərinin hesablanmış bərpa dəyərlərindən nə qədər artıq olmasını qiymətləndirmək məqsədilə nəzərdən keçirilir.

Qiymətdən düşmə zərəri müvafiq dövrdə qeydə alınır və əməliyyat xərclərinə daxil edilir. Qiymətdən düşmə zərəri qeydə alındıqdan sonra əmlak və avadanlıqlarının köhnəlmə xərcləri, ondan qalıq dəyərini çıxmaqla (əgər varsa), aktivlərin düzəliş olunmuş balans dəyərini sistemli şəkildə qalan iqtisadi faydalı dövrünə bölməklə gələcək dövrlərə uyğunlaşdırılır.

Xidmətlərin göstərilməsi ilə bağlı və ya inzibati məqsədlər üçün saxlanılan binalar balans hesabatında yenidən qiymətləndirmə tarixində onların ədalətli dəyərini əks etdirən yenidən qiymətləndirmə dəyərindən yığılmış hər hansı köhnəlmə və ehtimal olunan zərərlər çıxmaqla göstərilir və peşəkar qiymətləndiricilər tərəfindən bazar göstəriciləri əsasında aparılan qiymətləndirmə ilə müəyyənləşdirilir. Yenidən qiymətləndirmələr dövrü olaraq aparılır ki, bu zaman balans dəyəri balans hesabatı tarixində ədalətli dəyəri istifadə etməklə müəyyənləşdirilmiş balans dəyərindən əsaslı surətdə fərqlənmir.

Binaların yenidən qiymətləndirilməsindən yaranan hər hansı yenidən qiymətləndirmə artımı əmlak və avadanlıqlarının yenidən qiymətləndirmə ehtiyatının kreditinə yazılır lakin, əvvəllər xərc kimi tanınmış eyni aktiv üzrə yenidən qiymətləndirmə azalmasını bərpa etdiyi hal istisna təşkil edir, bu halda artım əvvəllər hesablanmış azalma həcmində mənfəət və zərər haqqında hesabatın kreditinə yazılır. Binaların yenidən qiymətləndirilməsi nəticəsində balans hesabatında yaranan azalma qalıqdan, əgər varsa, artıq olduğu həcmdə xərc kimi tutulur və həmin aktivin əvvəlki yenidən qiymətləndirməsi ilə bağlı əmlakın yenidən qiymətləndirmə ehtiyatında saxlanılır.

Yenidən qiymətləndirilən binalar üzrə köhnəlmə mənfəət və ya zərər haqqında hesabata daxil edilir. Yenidən qiymətləndirilən əmlakın daha sonra satışı və ya istismardan çıxması zamanı əmlakın yenidən qiymətləndirmə ehtiyatında qalan müvafiq yenidən qiymətləndirmə qalığı birbaşa bölüşdürülməmiş mənfəət hesabına köçürülür.

**Vergi sistemi**

Mənfəət vergisi xərcləri cari və təxirə salınmış vergi xərclərinin cəmini ifadə edir.

Cari vergi xərcləri il üzrə vergiyə cəlb olunan mənfəətə əsaslanır. Vergiyə cəlb olunan mənfəət mənfəət və zərər haqqında hesabatda göstərilən xalis mənfəətdən fərqlənir, çünki vergiyə cəlb olunan mənfəətə digər illərdə vergiyə cəlb olunan və ya tutulan gəlir və xərc maddələri daxil deyil, bundan əlavə o, heç vaxt vergiyə cəlb olunmayan və vergi tutulmayan maddələri özündə birləşdirmir. Bankın cari vergi xərcləri qüvvədə olan və ya əsasən balans hesabatı tarixinə qüvvədə olan vergi dərəcələrini istifadə etməklə hesablanır.

Təxirə salınmış vergilər - maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyərləri ilə vergiyə cəlb olunan mənfəətin hesablanmasında istifadə olunan müvafiq vergi bazaları arasında yaranan fərqlərdən bərpa edilməsi və ya ödənilməsi gözlənilən vergilərdir və bu növ vergilər balans hesabatının öhdəlik metodu əsasında uçota alınır. Təxirə salınmış vergi öhdəlikləri adətən bütün vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün tanınır, təxirə salınmış vergi aktivləri isə istifadə edilən tutulmalı müvəqqəti fərqlərə qarşı yaranması ehtimal edilən vergiyə cəlb olunan mənfəətin həcmində tanınır. Əgər müvəqqəti fərq nə vergiyə cəlb olunan mənfəətə, nə də maliyyə mənfəətinə təsir etməyən əməliyyat üzrə sair aktiv və öhdəliklərin ilkin tanınmasından yaranırsa, bu cür aktivlər və öhdəliklər tanınmır.

Təxirə salınmış vergi aktivlərinin balans dəyəri hər balans hesabatı tarixində nəzərdən keçirilir və aktivlərin bütün hissəsini və ya müəyyən hissəsini bərpa etməsi üçün kifayət qədər vergiyə cəlb olunan mənfəətin mövcudluğu ehtimal edilməyən həcmdə azaldılır.

Təxirə salınmış vergi - öhdəliklər üzrə hesablaşmanın aparıldığı və ya aktivlərin realizə olunduğu dövrdə tətbiq edilməsi gözlənilən vergi dərəcələri ilə hesablanır. Təxirə salınmış vergi mənfəət və zərər haqqında icmal hesabatda xərc maddəsi kimi göstərilir və ya hesabatın kredit balansına yazılır, lakin təxirə salınmış verginin birbaşa kapitala və hesabatın kredit balansına yazıldığı hallar istisna təşkil edir, belə ki, bu halda təxirə salınmış vergi səhmdar kapitalı ilə bağlı olur.

Azərbaycanda Bankın fəaliyyətinə şamil ediləcək müxtəlif başqa vergi növləri də mövcuddur. Bu vergilər əməliyyat xərcləri kimi mənfəət və zərər haqqında hesabata daxil edilir.

**Banklardan və müştərilərdən alınmış depozitlər**

Banklardan və müştərilərdən depozitlər ədalətli dəyəri ilə qeyd edilir. Nəticədə bu məbləğlər amortizasiya edilən dəyərlə göstərilir və xalis mədaxil ilə alına bilən məbləğ arasındakı fərq mənfəət və zərər haqqında hesabatda effektiv faiz dərəcələri metodundan istifadə etməklə borc müddətləri üzrə qeyd olunur.

**Maliyyə lizinqi**

Lizinq aktivlə əlaqəli olan bütün əhəmiyyətli risk və mükafat hadisələrini aktivin sahibliyinə yönəldir. Nəticə etibarı ilə ad keçə də bilər, keçməyə də. Lizinqin maliyyə və ya əməliyyat lizinqi olması müqavilənin formasından çox sövdələşmənin mahiyyətindən asılıdır. Lizinq maliyyə lizinqi kimi aşağıdakı hallarda qəbul olunur:

- Lizinq müddəti bitdikdən sonra icarəyə verən aktivin mülkiyyət hüququnu icarəçiyə ötürür.
- İcarəçi mülkiyyət hüququnun ötürülməsi zamanı aktivi onun ədalətli dəyərindən əhəmiyyətli dərəcədə aşağı qiymətə almaq hüququna malikdir. Mülkiyyət hüququnun ötürülməsi zamanı bunun həyata keçiriləcəyi kifayət dərəcədə dəqiqdir.
- Ad köçürülməsə də lizinq dövrü aktivin iqtisadi həyatının böyük qismini əhatə edir.
- Lizinqin başlanğıcında minimum lizinq ödənişlərinin cari dəyəri ən azı lizinqə götürülmüş aktivin ədalətli dəyərinə bərabər olmalıdır.
- Lizinq aktivlərinin xüsusi bir təbiəti vardır ki icarəçi ondan əhəmiyyətli dəyişikliklər etmədən istifadə edə bilər.

Lizinq müddətinin başlağıcında Bank icarəçi kimi maliyyə lizinqini öz balansında əmlakın ədalətli dəyərinə bərabər məbləğində aktiv və öhdəlik kimi və ya əgər aşağıdırsa lizinqin başlanğıcında müəyyən olunmuş minimum lizinq ödənişlərinin cari dəyəri ilə tanıyır. Nəticədə minimum lizinq ödənişləri maliyyə xərcləri və ödənilməmiş öhdəliklər arasında bölünür. Maliyyə xərcləri bütün lizinq müddətində elə paylanır ki,öhdəliyin qalıq balansı üçün daimi cari faiz dərəcəsi olsun. Şərti icarə xərcləri yarandığı dövrdə xərclər kimi tanınırlar. Lizinq əmlakının köhnalməsi Bankın əmlaklar üçün tətbiq etdiyi köhnəlmə siyasətinə uyğun olaraq aparılır.

**Ehtiyatlar**

Ehtiyatlar Bank keçmiş hadisələr nəticəsində cari hüquqi və ya əsaslanmış öhdəliyə malik olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərə yaradan ehtiyatların azalma ehtimalı olduqda və öhdəlik məbləği etibarlı qiymətləndirildikdə uçota alınır.

**Səhmdar kapitalı**

Səhmdar kapitalı ilkin dəyərlə tanınır. Səhmdar kapitalına nağd formadan başqa, aktivlər formasında edilən əlavələr səhmdar kapitalına əlavə edildiyi tarixə olan ədalətli dəyərləri ilə qeydə alınır.

Biznesin birləşməsindən fərqli olaraq, yeni səhmlərin buraxılmasına birbaşa aid olan kənar xərclər aidiyyatı gəlir vergiləri tutulduqdan sonra kapitaldan çıxılır.

Adi səhmlər üzrə dividendlər kapitalda elan olunduqları dövr üzrə azalma kimi tanınır. Balans hesabatı tarixindən sonra elan olunan dividendlər "Balans hesabatı tarixindən sonrakı hadisələr" haqqındakı 10 saylı Mühasibat Uçotunun Beynəlxalq Standartına ("MUBS") uyğun olaraq balans hesabatından sonrakı hadisələr kimi uçota alınır və müvafiq qaydada açıqlanır.

**Məcburi dövlət sosial sığorta haqları və digər müavinətlər**

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Bank işçilərin əmək haqlarından məcburi dövlət sosial sığorta haqları tutur və onları dövlət pensiya fonduna köçürür. Bundan əlavə, bu cür təqaüd sistemi işəgötürən tərəfindən cari ödənişlərin heyət üzrə ümumi xərclərin faizi hesablanmasını təmin edir. Belə xərclər müvafiq əmək haqlarının qazanıldığı dövrdə çıxılır. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər dövlət pensiya fondu tərəfindən yerinə yetirilir. Bank, işə götürən tərəfindən cari məcmu əmək haqqı ödənişlərinin faizi kimi hesablanmış cari ödənişlərin həyata keçirilməsini tələb edən Azərbaycan Respublikasının dövlət pensiya sistemindən başqa hər hansı pensiya sisteminə malik deyildir. Bundan başqa, Bankda yığılması tələb olunan təqaüd sonrası müavinətlər və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

**Şərti aktivlər və öhdəliklər**

Resursların axını zamanı öhdəliyin təmin olunması tələb olunduğundan və dəqiq hesablama aparılacağı yəqin edildiyindən bu kimi şərti öhdəliklər maliyyə hesabatlarında qeyd olunmamışdır. Şərti aktivlər maliyyə hesabatlarında qeyd olunmamışdır, amma iqtisadi mənfəət əldə edildiyi halda açıqlanması mümkündür.

**Gəlir və xərclərin tanınması**

Faiz gəliri və xərci hesablama metodu ilə effektiv faiz metodundan istifadə etməklə tanınır. Effektiv faiz metodu maliyyə aktivinin və ya maliyyə öhdəliyinin (və ya maliyyə aktivləri və ya maliyyə öhdəlikləri qruplarının) amortizasiya dəyərinin hesablanması və müvafiq dövr üzrə faiz gəlirinin və faiz xərclərinin bölüşdürülməsi metodudur. Effektiv faiz dərəcəsi hesablanmış gələcək nağd pul ödənişlərini və ya qəbzləri maliyyə alətinin gözlənilən faydalı istismar müddəti üzrə və ya müvafiq olduqda, daha qısa müddətdə maliyyə aktivinin və ya maliyyə öhdəliyinin xalis balans dəyərinə dəqiq diskontlaşdıran dərəcədir.

Qiymətdən düşmə zərəri nəticəsində maliyyə aktivi və ya oxşar maliyyə alətləri qrupu (qismən silindikdə) silindikdə, faiz gəliri qiymətdən düşmə zərərini müəyyən etmək məqsədilə gələcək nağd pul vəsaitlərini diskontlaşdırmaq üçün istifadə olunan faiz dərəcəsi əsasında tanınır.

Aidiyyatı əməliyyatlar başa çatdıqda sair gəlirlər mənfəət və zərər haqqında hesabata daxil edilir. Aidiyyati əməliyyatlar başa çatdıqdan sonra sair gəlirlər mənfəət və zərər haqqında hesabatın kreditinə yazılır. Kreditin ayrılması haqları, əhəmiyyətli olarsa, (aidiyyatı birbaşa məsrəflərlə birlikdə) təxirə salınır və kreditlər üzrə effektiv mənfəətə düzəliş kimi tanınır. Komissiya gəlirləri/xərcləri hesablama metodu ilə tanınır.

**Haqq və komissiya gəlirləri**

Haqq və komissiya gəlirlərinə kreditin ayrılması haqları daxildir. Kreditin ayrılması haqları aidiyyatı birbaşa aidiyyatı xərclərlə birlikdə təxirə salınır və kreditin effektiv faiz dərəcəsinə düzəliş kimi qeydə alınır. Bütün digər komissiyalar xidmətlər yerinə yetirildikdə tanınır.

**Xarici valyuta əməliyyatları**

Xarici valyutada müəyyən edilmiş pul aktiv və öhdəlikləri balans tarixindəki alqı-satqı məzənnəsinə uyğun şəkildə Yeni Azərbaycan Manatına konvertasiya edilir. Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatın yerinə yetirildiyi günə qüvvədə olan valyuta məzənnəsi ilə hesablanır. Bu əməliyyatlardan yaranan gəlir və zərər xarici valyuta mübadiləsi üzrə xalis gəlir kimi qeyd edilir.

**Xarici valyuta məzənnələri**

Bank ilin sonuna maliyyə hesabatlarının tərtib olunması üçün aşağıdakı xarici valyuta məzənnələrindən istifadə etmişdir:

| 31 dekabr 2006-cı il | | | 31 dekabr 2005-ci il | | |
|---|---|---|---|---|---|
| 1 ABŞ dolları | = | 0.8714 AZN | 1 ABŞ dolları | = | 0.9186 AZN |
| 1 AVRO | = | 1.1471 AZN | 1 AVRO | = | 1.0918 AZN |
| 1 Rus Rublu | = | 0.0331 AZN | 1 Rus Rublu | = | 0.0319 AZN |

**Yeni Azərbaycan Manatının tətbiqi**

1 yanvar 2006-cı il tarixdə Azərbaycan manatı denominasiya edildi və həmin tarixdən etibarən 5000 köhnə nümunəli Azərbaycan manatı 1 Yeni Azərbaycan Manatına (AZN) bərabərdir. 31 dekabr 2005-ci il tarixinə aidiyyatı rəqəmlər müvafiq olaraq yenidən göstərilmişdir.

**Digər maliyyə aktivləri və öhdəlikləri**

Bank qeydə alınmış məbləğləri təmin etmək üçün hüquqi cəhətdən təsiredici qüvvəyə malik olduqda və ya Bank eyni zamanda aktivlərini maddi vəsaitə çevirmək və ya öhdəliklərini yerinə yetirmək, yaxud da hər ikisi üzrə xalis əsasda hesablaşma aparmaq niyyətində olduqda maliyyə aktivləri və öhdəlikləri tutuşdurulur və balansda xalis məbləğlə qeyd olunur. Silinməsinə icazə verilməyən maliyyə aktivinin köçürülməsini uçota alarkən Bank köçürülmüş aktivi və ya əlaqəli öhdəliyi əvəzləşdirmir.

**Yeni və düzəliş edilmiş Maliyyə Hesabatının Beynəlxalq Standartlarının qəbul edilməsi**

Cari ildə Bank Beynəlxalq Mühasibat Uçotu Şurası ("BMUŞ") və Beynəlxalq Maliyyə Hesabatlarının Şərhi Komitəsi ("BMHŞK") tərəfindən buraxılmış və öz əməliyyatlarına uyğun olmaqla yanaşı 1 yanvar 2006-cı il tarixdən başlayan hesabat ili üzrə qüvvədə olan bütün yeni və düzəliş edilmiş Standartları və Şərhləri qəbul etmişdir. Bu yeni və düzəliş edilmiş Standartların və Şərhlərin qəbul edilməsi bu və ya keçən illər üçün hesabat edilən məbləğlərə təsir edən bankın mühasibat uçotu siyasətlərinə dəyişikliklərin olması ilə nəticələnməmişdir. 2006-cı ildə aşağıdakı Standartlar qəbul edilmişdir:

BMUSŞ-un 2005-ci ilin aprel ayında nəşr edilmiş "Proqnozlaşdırılan qrup daxili əməliyyatlar üzrə pul vəsaitlərinin hecinq uçotu" haqqında MUBS 39-a düzəliş etmişdir. Bu düzəlişə əsasən yüksək ehtimalla proqnozlaşdırılan qrup daxili əməliyyatların xarici valyuta riskini maliyyə hesabatlarında hecinq obyekti kimi göstərməyə icazə verilir. 1 yanvar 2006-cı il tarixdən və ya ondan sonra başlayan illik dövrlər üzrə qüvvədə olan bu düzəlişin Bankın maliyyə hesabatlarına heç bir mühüm təsiri olmamışdır.

BMUSŞ-un "Maliyyə Zəmanəti Müqavilələri" haqqında MUBS 39-a düzəlişi 2005-ci ilin avqust ayında buraxılmış və MUBS 39-a və MHBS 4-ə düzəlişləri əks etdirir. Düzəlişlər maliyyə zəmanəti müqavilələrini müəyyən edir və bu cür müqavilələrin ilk olaraq ədalətli dəyərlə, daha sonra isə "Ehtiyatlar, Şərti Öhdəliklər və Şərti Aktivlər" haqqında MUBS 37-yə müvafiq olaraq müəyyənləşdirilmiş ehtiyatın yüksək həddində və amortizasiya çıxılmaqla ilk olaraq tanınmış məbləğ ilə qeydə alınması tələb olunur. 1 yanvar 2006-cı il tarixdən başlayan illik dövrlər üzrə qüvvədə olan bu düzəlişin Banka heç bir mühüm təsiri olmamışdır.

Bu maliyyə hesabatlarının təsdiq olunduğu tarixdə Banka aid olan aşağıdakı Standartlar və Şərhlər buraxılmış lakin qüvvəyə minməmişdir:

BMUSŞ 2005-ci ilin avqust ayında "Maliyyə Alətləri: Açıqlamalar" haqqında MHBS 7-ni nəşr etmişdir. Bu standart "Bankın və oxşar maliyyə təşkilatlarının maliyyə hesabatlarında açıqlamalar" haqqında MUBS 30-u və MUBS 32-nin açıqlamalarını əvəz edir. MHBS 7 müəssisənin maliyyə mövqeyi və fəaliyyəti üçün maliyyə alətlərinin əhəmiyyətliliyini və maliyyə alətləri ilə bağlı yaranan risklərə dair keyfiyyət və kəmiyyət məlumatını açıqlamağı tələb edir. Bu standart 1 yanvar 2007-ci il tarixdən başlayan illik dövrlər üzrə qüvvədədir.

2005-ci ilin avqust ayında BMUSŞ "Maliyyə Hesabatlarının təqdimatı" haqqında MUBS 1-ə "Kapital açıqlamaları" adlanan düzəlişi hazırlamışdır. Bu müəssisənin kapitalı və onların idarə edilməsi haqqında açıqlamaların verilməsini tələb edir. Bu düzəliş də həmçinin 1 yanvar 2007-ci il tarixdən başlayan illik dövrlər üzrə qüvvədədir.

BMHŞK 2006-cı ilin mart ayında "Derivativ (törəmə) alətlərin yenidən qiymətləndirilməsi" haqqında BMHŞK 9-u hazırlamışdır. Müəssisələrdən maliyyə alətlərində törəmə alətlərin mövcud olub olmamasını müəyyənləşdirmək tələb olunur; bu cür şərh maliyyə alətlərinin şərtlərini mühüm şəkildə dəyişən şərtlər mövcud olduqda sonrakı yenidən qiymətləndirmənin aparılmasını qadağan edir. Bu şərh 1 iyun 2006-cı il tarixdən və ya sonra başlayan hesabat dövrləri üzrə qüvvədədir.

BMUSŞ 2006-cı ilin dekabr ayında "Əməliyyat seqmentləri" haqqında MHBS 8-i hazırlamışdır. Bu standart 1 yanvar 2009-cu ildən və ya sonra başlayan hesabat dövrləri üçün "Seqment Hesabatı" haqqında MUBS 14-nü əvəz edəcəkdir. MHBS 8 seqment məlumatını rəhbərliyə hesabat olunan qaydada hesabat etməyi və onu maliyyə hesabatlarına uyğunlaşdırmağı tələb edir.

Bankın rəhbərliyi hazırda bu yeni və düzəliş edilmiş Standartların və Şərhlərin gələcəkdə qəbul edilməsinin təsirini qiymətləndirir.

## 4. XALİS FAİZ GƏLİRLƏRİ

| | 2006 | 2005 |
|---|---|---|
| **Faiz gəlirləri** | | |
| Müştərilərə verilmiş kreditlər üzrə faiz | 5,198,677 | 3,468,875 |
| Banklara verilmiş kreditlər və avanslar üzrə faiz | 120,376 | 38,336 |
| Borc qiymətli kağızları üzrə faiz | 69,625 | 6,021 |
| Cəmi faiz gəliri | **5,388,678** | **3,513,232** |
| **Faiz xərcləri** | | |
| Müştəri hesabları üzrə faiz | 2,132,615 | 872,629 |
| Banklardan və digər kredit təşkilatlarından alınmış kreditlər və avanslar üzrə faiz | 533,416 | 356,551 |
| Borc qiymətli kağızları üzrə faiz | - | 105,414 |
| Cəmi faiz xərcləri | **2,666,031** | **1,334,594** |
| Faiz hesablanan aktivlər üzrə ehtimal olunan zərərlər üçün ehtiyatın yaradılmasından əvvəl xalis faiz gəlirləri | **2,722,647** | **2,178,638** |

## 5. EHTİMAL OLUNAN ZƏRƏRLƏR ÜÇÜN EHTİYATLAR, DİGƏR EHTİYATLAR

| | Banklara verilmiş kreditlər və avanslar | Müştərilərə verilmiş kreditlər | Cəmi |
|---|---|---|---|
| **31 dekabr 2004-cü il** | 9,800 | 418,878 | 428,678 |
| (Ehtiyatların bərpası)/ehtiyat | (9,800) | 524,090 | 514,290 |
| **31 dekabr 2005-ci il** | - | 942,968 | 942,968 |
| Ehtiyat | - | 67,497 | 67,497 |
| **31 dekabr 2006-cı il** | **-** | **1,010,465** | **1,010,465** |

Zəmanətlər və digər öhdəliklər üzrə ehtimal olunan zərərlər üçün ehtiyatlarda dəyişikliklər aşağıdakı kimi olmuşdur:

| | Zəmanətlər və digər öhdəliklər |
|---|---|
| **31 dekabr 2004-cü il** | 23,178 |
| Ehtiyatların bərpası | (23,178) |
| **31 dekabr 2005-ci il** | - |
| Ehtiyat | 62,396 |
| **31 dekabr 2006-cı il** | **62,396** |

Banklara və müştərilərə verilmiş kreditlər və avanslar üzrə ehtimal olunan zərərlər üçün ehtiyatlar aidiyyatı aktivlərdən çıxılır. Zəmanətlər və digər öhdəliklər üzrə ehtimal olunan zərərlər üçün ehtiyatlar digər öhdəliklərə daxil edilir.

## 6. XARİCİ VALYUTA ƏMƏLİYYATLARI ÜZRƏ XALİS GƏLİR

| | 2006 | 2005 |
|---|---|---|
| Dilinq əməliyyatları, xalis | 131,164 | 109,523 |
| Xarici valyuta mövqeyinin yenidən qiymətləndirmə fərqləri, xalis | 24,367 | 12,468 |
| Cəmi xarici valyuta əməliyyatları üzrə gəlir | **155,531** | **121,991** |

## 7. HAQQ VƏ KOMİSSİYA GƏLİRLƏRİ VƏ XƏRCLƏRİ

| | 2006 | 2005 |
|---|---|---|
| **Haqq və komissiya gəlirləri:** | | |
| Nağd pul əməliyyatları | 611,595 | 333,871 |
| Hesablaşmalar | 568,306 | 466,593 |
| Xarici valyuta əməliyyatları | 253,751 | 385,255 |
| Plastik kart əməliyyatları | 204,824 | 134,680 |
| Sənədləşdirmə əməliyyatları | 22,531 | 31,030 |
| Sair | 22,200 | 57,875 |
| Cəmi haqq və komissiya gəliri | **1,683,207** | **1,409,304** |
| **Haqq və komissiya xərcləri:** | | |
| Plastik kart əməliyyatları | 169,413 | 138,020 |
| Nağd pul əməliyyatları | 85,522 | 63,132 |
| Hesablaşmalar | 80,837 | 61,314 |
| Sənədləşdirmə əməliyyatları | 1,144 | 8,719 |
| Xarici valyuta əməliyyatları | 267 | 2,518 |
| Sair | 13,771 | 28,772 |
| Cəmi haqq və komissiya xərcləri | **350,954** | **302,475** |

## 8. ƏMƏLİYYAT XƏRCLƏRİ

| | 2006 | 2005 |
|---|---|---|
| Əmək haqqı və bonuslar | 1,053,104 | 644,624 |
| Köhnəlmə və amortizasiya | 536,670 | 399,755 |
| İcarə məsrəfləri | 265,020 | 44,859 |
| Reklam və marketinq məsrəfləri | 264,498 | 215,035 |
| Sosial sığorta məsrəfləri | 230,364 | 137,225 |
| Rabitə | 215,183 | 175,856 |
| Təhlükəsizlik məsrəfləri | 129,633 | 131,523 |
| Dəftərxana ləvazimatları | 125,871 | 134,255 |
| Peşəkar xidmət haqları | 103,196 | 80,134 |
| Heyətin təlimi, maliyyə köməyi və yemək məsrəfləri | 101,981 | 86,306 |
| Sponsorluq xərcləri | 75,000 | - |
| Əmlak və bank əməliyyatları sığortası | 74,493 | 41,854 |
| Mənfəət vergisindən başqa vergi | 68,204 | 39,835 |
| Kommunal xərcləri | 65,252 | 61,242 |
| Nəqliyyat və ezamiyyət məsrəfləri | 49,883 | 44,574 |
| Əyləncə məsrəfləri | 48,177 | 34,366 |
| Təmir və saxlanma məsrəfləri | 45,039 | 31,087 |
